# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## Azərbaycan fəlsəfi fikrində təfəkkürün tənqidiliyi problemi

**Sona Əliyeva**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müəllimi*
**E-mail:** sonasi83@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d. Ç.Q. Verdiyeva,
psixol.ü.f.d. S.H. Əlizadə

**Açar sözlər:** fəlsəfi fikir, təfəkkürün tənqidiliyi, əxlaq, məntiq, psixoloji fikir tarixi, zehin

**Ключевые слова:** философская идея, критичность мышления, мораль, логика, история психологических идей, ум

**Key words:** philosophical idea, criticism of thinking, morality, logic, history of psychological ideas, mind

Bildiyimiz kimi psixologiya uzun müddət fəlsəfənin tərkibində olmuşdur. XIX əsrin son rübündə filosoflar insan təbiətini öyrənərkən bir qayda olaraq məhdud təcrübəyə, intuisiya və ümumiləşdirmələrə əsaslanırdılar. Filosofların o dövrdə biologiya, fizika və başqa təbiət elm sahələrində mövcud olan metod və vasitələrdən istifadə etməyə başlamaları ilə fəlsəfədə, xüsusilə insanın öyrənilməsində əsaslı dəyişiklik baş verdi. Məhz bundan sonra insan düşüncəsini etibarlı yolla öyrənmə vasitələri olan müşahidə və eksperiment metodlarından istifadə edilməsilə psixologiya özünün fəlsəfi kökündən ayrılmağa başladı. Heç də təsadüfi deyildir ki, psixologiya tarixçiləri fəlsəfi əsasdan elmi əsasa keçidi “psixologiyada nə vaxtsa baş vermiş olan ən böyük dəyişiklik” adlandırırlar (1, s. 8).

Azərbaycan psixoloji fikir tarixini araşdırarkən, onun hər hansı bir sahəsini öyrənərkən, yaxud da təşəkkül tarixini tədqiq edərkən, Azərbaycan fəlsəfi fikir tarixinə nəzər salmaq, klassik Azərbaycan filosoflarının əsərlərini, onların idrak nəzəriyyəsi, məntiq, etik fikirlərini psixoloji aspektdən araşdırmalıyıq. Azərbaycan psixoloji fikir tarixinin köklərini qədim Azərbaycan fəlsəfəsində axtarmağımız heç də təsadüfi deyildir. Çünki, psixologiya təkcə Azərbaycanda deyil, bütün dünyada XIX əsrin ortalarına qədər müstəqil elm sahəsi olmadığı üçün, başqa elmlərin, xüsusən də fəlsəfənin tərkibində təşəkkül tapmışdır. Azərbaycanda tənqidi təfəkkür konsepsiyasının təşəkkül tarixini öyrənmək üçün klassik Azərbaycan fəlsəfəsini və onun görkəmli nümayəndələrinin əsərlərində irəli sürdükləri fikir və ideyaları təhlil etməyi vacibdir. Etika – fəlsəfi fikrin tərkib hissəsi sayılır. Ərəb dilində etikaya “əxlaq elmi” deyilir. “Əxlaq” isə “xülq” – xasiyyət sözünün cəmidir. Əslində yunanca – etika (ethika) termini də elə “xasiyyət” mənasını bildirir. Bu baxımdan “əxlaq” mənəviyyat, əxlaqi keyfiyyətlər məzmununu daşımaqla bərabər, çox vaxt “xasiyyətlər” yerində işlədilir (2, s. 218). Hörmətli filosof Zakir Məmmədovun yuxarıda qeyd etdiyi fikirlərə əsaslanaraq deyə bilərik ki, qədim və orta əsr Azərbaycan filosoflarının əsərləri, xüsusilə onların etik fikirləri, elə psixoloji fikirlər olduğu üçün, o əsərləri müasir Azərbaycan psixoloji fikrinin ilk qaynaqları hesab etmək lazımdır. Sinifli cəmiyyətin yaranması və ilk dövrlərin əmələ gəlməsi

ilə əlaqədar insanların dünyagörüşü də yetkinləşməyə başlamış, ictimai şüurun xüsusi forması olan fəlsəfə təşəkkül tapmışdır. Fəlsəfə varlığa və idraka ən ümumi baxışlar sistemi olduğu üçün özündə həm də psixologiyanı əks etdirir.

Bu məqalədə biz fəlsəfə tarixinin ən zəngin olan orta əsrlər dövründə orijinal fəlsəfi təlimlər yaradan Azərbaycan filosofları Əbülhəsən Bəhmənyar, Əbuhəfs Sührəvərdi, Siracəddin Urməvi, Nəsrəddin Tusi və b. əsərlərini nəzərdən keçirib, ağıl, tənqidi təfəkkür məsələləri ilə bağlı fikir və ideyaları araşdırıb, oradakı psixoloji cəhətlərə diqqət yetirəcəyik.

Azərbaycan filosofu, Əbülhəsən Bəhmənyar XI əsr Şərq peripatetizminin ən görkəmli nümayəndəsi hesab olunur. Onun əsərlərindən "Təhsil", "Məntiqə dair zinət", "Gözəllik", "Səadət", "Musiqi kitabı", "Metafizikanın mövzusu", "Mövcudatın mərtəbələri" qeyd etmək olar. Bu əsərlər arasında "Təhsil" xüsusi yer tutur. Şərqin başqa peripatetik filosofları kimi, Əbülhəsən Bəhmənyar da idrak prosesinin hissi və əqli olmaqla iki mərhələdən keçdiyini göstərmişdir. O, göstərmişdir ki, şeylər təbii surətdə duyğular vasitəsilə, sonra onların nüsxəsi olan təxəyyül vasitəsilə, daha sonra isə əql vasitəsilə dərk edilir. İnsanda duyğu ilə dərk etmə, təxəyyüllə dərketmə, fəhmlə dərk etmə vardır. Əbülhəsən Bəhmənyarın fəlsəfəsində əqli idrak məsələləri geniş işıqlandırılmışdır. Bununla bağlı Əbülhəsən Bəhmənyar (2, s.76) yazır: "Şeylərin mahiyyətlərinin dərk olunması hisslərin işi deyildir. Belə ki, onlar dəyişə bilən zahiri cəhətləri qavrayır, əql isə şeylərdə sabit olan mahiyyətləri və həqiqətləri dərk edir".

Əbülhəsən Bəhmənyar əqli idrakı hissi idrakın bilavasitə davamı, sonrakı mərhələsi kimi şərh etmişdir. Görkəmli Azərbaycan filosofunun təlimində idrak prosesinin hər bir mərhələsi özündən sonrakı mərhələ üçün şərt olub, onu hazırlayır. Hissi idrak formaları tərəfindən spesifik tərzdə əldə edilən məlumat əqlin sərəncamına verildikdən sonra yeni bir keyfiyyət qazanır. Duyğu qatışıq şeyləri xəyala ərz edir, xəyal onları əqlə ərz edir, hər birinin bir fərd olaraq götürərək ən xüsusini, ən ümumini, substansionalı və aksidentalı müəyyənləşdirir. Bu zaman əqldə birinci mənalar, yəni təsəvvür üçün ilkin şeylər rəsm olur. Bundan sonra əql onlardan təriflər düzəldir (2, s. 96).

Əbülhəsən Bəhmənyar idrakın əqli mərhələsini onun hissi mərhələsindən nəinki mütləq surətdə ayırmır, əksinə, əqli məlumatların hissi məlumatlar əsasında meydana çıxdığını söyləyir.

Əbülhəsən Bəhmənyarın idrak nəzəriyyəsi onun məntiq təlimi ilə üzvi surətdə bağlıdır və orada təfəkkür formaları xüsusi olaraq dərindən araşdırılır. Azərbaycan filosofunun fikrincə məchul olan, sonra isə düşünməklə məluma çevrilən axtarılanlar tərifin və sillogizmin sayəsində tapılır. Dahi filosofun tərif haqqındakı təlimi, hökmlər və istidlal barədə verdiyi məlumatlar nəinki öz dövrü üçün, həm də bu gün üçün də çox maraqlıdır.

O, tərif almaq üçün zəruri olan qaydaları göstərmişdir. Əbülhəsən Bəhmənyar idrak və məntiq məsələlərindən bəhs edərək fikir, zehin, zəka və intuisiya kimi terminlərin daşıdığı mənalara da diqqət yetirmişdir. O, "Təhsil" kitabında yazır: "Fikir əqlin faydalandığı bir qüvvədir, fikir mətləblərin başlanğıclarına doğru insan zehninin elə hərəkətidir ki, onlardan mərtəbələrə gedib çıxılır, zehin bilik əldə etmək üsulunu hazırlayan nəfs qüvvəsidir, zəka intuisiya qabiliyyətidir, intuisiya – axtarılan verildikdə orta termini tapmağa, yaxud orta termin tapıldıqda böyük termin tapmağa yönəlmiş nəfsin hərəkətidir. Bir sözlə, intuisiya məlumdan məchula keçmək sürətidir".

Əbuhəfs Sührəvərdinin (1145-1234) zəngin yaradıcılığı olmuşdur (2, s. 110). Onun əsərlərindən "Biliklərin töhfələri", "Duaların şərhinə dair bəndələrin xəzinəti" və "Ürəkləri sevgiliyə qovuşmağa aparan cazibə" daha geniş şəkildə dünyaya yayılmışdır. Orta əsrlərdə böyük sufi təliminin öyrənilməsində Əbuhəfs Sührəvərdinin əsərləri böyük rol oynamışdır.

O, öz əsərlərində sufizmin praktikasının–sufilərin əxlaq normalarının, mənəvi psixoloji keyfiyyətlərinin, davranış və münasibət qaydalarının geniş şərhini vermişdir. Belə demək olar ki, Azərbaycan sufi təlimi, tənqidi təfəkkür konsepsiyasının episentrində dayanmış olan təlimdir. Sufizm şəriət, təriqət və həqiqət adlanan üç mərhələdən ibarətdir. Sufi mütəfəkkirlərinin əqidəsincə bədəndə baş verən psixi hadisələr bilavasitə ruhla bağlıdır: Ruha görə əql qərarlaşıb, ruha görə mühakimə cari olub. Əgər ruh olmasaydı, əql fəaliyyətini itirərdi, nə ona əsaslanan, nə də ona məxsus bir mühakimə olardı. Əbuhəfs Sührəvərdinin əqlə belə əhəmiyyət verməsi onun islamın sufi elmi fəlsəfə qolunun nümayəndəsi olduğunu təsdiqləyir. Mütəfəkkirin fikrincə, ruhun və bəsirətin mövcudluğu əqlin mövcudluğu ilə iqrar edilir: "Əql ruhun dili, bəsirətin tərcümanıdır".

Sufilərin fikrinə görə, ruh həm maddi, həm qeyri-maddidir. Əbuhəfs Sührəvərdi maddi ruhu "heyvani ruh" adlandırmışdır, insani ruhun isə ilahi aləmdən göndərildiyini qeyd edir və hesab edir ki, insani ruh heyvani ruhla birləşdikdə insan nitqə və ilhama malik olur. Sufilər insanın mütləq həqiqəti dərk etməsini hiss və əqli idrak qüvvəsi ilə deyil, yalnız mistik hallara və məqamlara yiyələnməklə mümkün sayırdılar. Mistik özünükamilləşdirmə yolunda ilk mərhələ şəriətdirsə, son məqsəd həqiqətdir. Şəriətdən həqiqətə mənəvi gediş yoluna təriqət, bu yolun üstündəki dayanacaqlara məqamlar deyilir. Məqamlar sufi halları ilə qırılmaz surətdə bağlıdır. Məqam sufinin öz ciddi cəhdi sayəsində çatdığı kamillik mərtəbəsidir, hal hər bir məqamı tamamlayan, yolçunu yeni məqama hazırlayan və nəhayət, haqqa qovuşduran ətadır, ilahi vergidir. Hal, ani, keçici, məqam isə nisbətən sabit, dayanıqlı psixoloji vəziyyət kimi səciyyələndirilir.

Əbuhəfs Sührəvərdinin sufi təliminə görə şəriət, təriqət və həqiqət mərhələlərinə uyğun olaraq idrakın yəqinliyin elmi (elm -əl yəqin) yəqinliyin eyni (ayn-əl yəqin) və yəqinliyin həqiqəti (haqq-əl yəqin) kimi üç mərhələsini fərqləndirmişlər. Yəqinliyin elmi eşidib öyrənməklə, yəqinliyin eyni görüb anlamaqla həqiqəti dərk etməkdir. Yəqinliyin həqiqəti isə həqiqəti dərk etmək üçün həqiqətə qovuşmaqdır. Birinci yəqinlik, məsələn, od haqqında eşitməklə, ikinci yəqinlik odu görməklə, üçüncü yəqinlik isə odda yanmaqla, ona toxunmaqla əldə edilir.

Azərbaycanda psixoloji fikrin inkişaf tarixinə təsir göstərən filosoflardan biri də Siracəddin Urməvi olmuşdur. Onun əsərləri orta əsrlərdə bəşər elmi-fəlsəfi fikri ilə yanaşı həm də Azərbaycan psixoloji fikir tarixini zənginləşdirmişdir və ona görə də Siracəddin Urməvi irsinin öyrənilməsi fəlsəfə tariximizlə yanaşı psixoloji fikir tariximiz üçün də qiymətli xəzinədir.

Böyük Azərbaycan filosofu Siracəddin Mahmud Əbubəkr oğlu Urməvi 1198-ci ildə Cənubi Azərbaycanın Urmiyə şəhərində anadan olmuşdur. Filosofun kitabları içərisində "Nurların doğuşları" əsəri daha geniş şöhrət tapmışdır. Onun idrak nəzəriyyəsinə aid olan fikirləri "Hikmət incəlikləri" kitabında toplanmışdır. Siracəddin Urməvi idrak prosesini hissi və əqli olmaqla iki mərhələdən keçdiyini göstərmişdir. İdrakın əqli mərhələsini Siracəddin Urməvi, ümumiyyətlə, Şərq peripatetikləri tərəfindən hissi mərhələnin davamı, həqiqətin əldə edilməsi prosesinin yüksək məqamı kimi göstərmişdir. Belə ki, şeylərin mahiyyəti yalnız bu mərhələdə dərk edilir. Təfəkkür formalarından bəhs edən məntiq idrakın əqli mərhələsi ilə bağlıdır. Siracəddin Urməvi qeyd edir ki, idraki əhəmiyyət daşıyan məntiqin əsas qayəsi həqiqətə çatmaqdır (2, s. 205). O, göstərir ki, məchul olanı aşkar edərkən səhvə yol verilə bilər. Bu səhvi aradan qaldıracaq müəyyən üsullar və xüsusi şərtlər vardır. O, yazır: "Bir çox nəzəri biliyin bəzi başqa zəruri bilikdən hasil edilməsi müəyyən üsullar və xüsusi şərtlərlə mümkündür. Onların mövcudluğu və düzgünlüyü zəruri surətdə bilinmədiyi üçün fikirdə tez-

tez səhv baş verə bilər”. Müəyyən üsullar dedikdə anlayışın tərifinə və istidlalın deduksiya, induksiya, analogiya kimi növlərinə, xüsusi şərtlər dedikdə isə tərifin və istidlalın qaydalarına riayət etmək nəzərdə tutulur. Siracəddin Urməvi məlum biliklərə istinadən yeni biliklərə çatmağı mümkün saymışdır. Buradan da yeni biliyin əldə edilməsi yollarını və şərtlərini öyrədən xüsusi elm kimi məntiqin vəzifəsi meydana çıxır. “Nurların doğuşları” əsərində yazılır: “Məlumlardan məchullara keçmək yollarını və onların şərtlərini öyrədən bir qanuna ehtiyac duyulur. Belə olduqda fikirdə yalnız nadir hallarda səhv baş verə bilər. Bu məntiqdir”. Siracəddin Urməvi anlayış, hökm və istidlaldan ibarət təfəkkür formalarını, onların növlərinin geniş araşdırmışdır.

Siracəddin Urməvi insanda mövcud olan bütün xasiyyətlərin başlanğıcını (əsasını) dörd qüvvəyə - əql qüvvəsi, qəzəb qüvvəsi, şəhvət qüvvəsi və ədalət qüvvəsinə aid etmişdir. Mötədilliklə olduqda tədbirin yaxşılığı, rəyin düzgünlüyü, incə şeylərdə gözüaçıqlıq, səriştəlilik və hikmət əsərlərindən olan hər şey meydana çıxır”. Beləliklə, insanda mövcud olan bütün xasiyyətlərin başlanğıcının əql, qəzəb və şəhvət qüvvələrinə gedib çıxdığını söyləyən Siracəddin Urməvi yazır “Bu üç qüvvənin kamilliyi ədalətlə açıldıqda onun nəticəsi xasiyyətlərin və işlərin yaxşısı olur. Ədalət (tənlik, mötədillik) həmin üç qüvvəni daima müşayiət edir, tənzimləyir, kamilləşdirir: Əql qüvvəsinin kamilliyinin nəticəsi hikmətdir, qəzəb qüvvəsinin kamilliyinin nəticəsi şücayətdir, şəhvət qüvvəsinin kamilliyinin nəticəsi şərəfdir. Məhz bu keyfiyyətlər insanı ideallaşdırır, yer üzünün əşrəfi edir: Özündə hikmət, şücayət, şərəf, ədalətlilik hasil edən kəs mələklər dərəcəsinə yaxınlaşır və şeytanlar mərtəbəsindən uzaqlaşır. Hər kəs şeytanlara mələklər dərəcəsindən uzaq olduğu qədər yaxındır (2, s.221)”. Göründüyü kimi, Siracəddin Urməvinin əqli qüvvənin mötədillik prinsipinə uyğun olaraq inkişaf etməsi elə ağlın inkişafı, təfəkkürün müstəqillik və tənqidilik kimi keyfiyyətlərinin inkişaf etdirilməsinin başlıca yoludur.

Nəsrəddin Tusi “hikmət” cinsinə aşağıdakı keyfiyyətləri daxil etmişdir: zəka, dərk sürəti, zehin aydınlığı, öyrənmə asanlığı, ağıl gözəlliyi, hafizə və hazırcavablıq. Göründüyü kimi bu keyfiyyətlər olmadan insanın nə özünü, nə də ətraf aləmi düzgün dərk etməsi mümkün deyildir. Elə tənqidi təfəkkür də bu keyfiyyətlərdən azad deyildir. N.Tusi hikmət kateqoriyasına daxil etdiyi keyfiyyətlərin məzmununu belə izah edir (60, s. 90):

Zəka – ona deyilir ki, çoxlu hadisə və xüsusiyyətlər içərisindən ilk baxışda, dərhal, ani surətdə (şimşək sürəti ilə) özünə lazım olanı seçə bilib asanlıqla düzgün nəticə çıxara bilsin.

Dərk sürəti – ona deyilir ki, nəfs yalnız öyrənilәsi şeylərə doğru yönəldilsin, mənimsəmədə “dayanmaq”, “duruxmaq” kimi “rəzilətlərə” ehtiyac qalmasın.

Zehin aydınlığı – ona deyilir ki, nəfsin istedadı iztirab və təşviş keçirmədən, tərəddüdə yol vermədən istənilən məqsədə yönəldilmiş olsun.

Öyrənmə asanlığı (diqqət) – ona deyilir ki, nəfs diqqəti nəzəri üzərində səyi artırsın, o, müxtəlif xatirələr, ümumiyyətlə, özünə aid olan məsələlərlə deyil, heç bir maneəyə baxmadan yalnız tələb edilən məsələyə yönəldilmiş olsun.

Ağıl gözəlliyi – ona deyilir ki, istər mübahisə, istər tədqiqat, istər kəşfdə həqiqət necədirsə, həmin hədd və həmin kəmiyyətdə qorunub saxlanılsın, nə daxili ehtimala, nə də xarici təsirə yol verilməsin.

Hafizə – ona deyilir ki, ağıl, təsəvvür, təfəkkür və ya təxəyyül vasitəsilə ümumiləşdirilib yığcamlaşdırılmış anlayışlar (surətlər) mühafizə edilib, yaxşı yadda saxlanıla bilsin.

Hazırcavablıq – ona deyilir ki, dərk edilmiş və yadda saxlanılmış anlayışlar istənilən vaxt asanlıqla xatırlanıb deyilə bilsin.

N.Tusi insanın mahiyyətinin, onun əxlaqını (xarakterini) əsasən nəfsi (nitq nəfsi) əsasında

izah etməyə çalışmışdır. Bu cəhd N.Tusi dövrü üçün çox böyük nailiyyət hesab olunur. O, özündən əvvəl yaşamış olan filosoflardan fərqli olaraq hissi idraka deyil, məntiqi idraka daha çox əhəmiyyət vermiş və hər şeyin "nəfs" qüvvəsi əsasında baş verdiyini göstərmişdir. Fikrimizi ümumiləşdirərək deyə bilərik ki, N.Tusinin elmi-fəlsəfi baxışları, insan psixologiyası, xüsusilə nəfs (psixika, şüur, ruh) anlayışı ilə bağlı verdiyi izahlar Azərbaycan psixoloji fikir tarixinin ən qiymətli nümunələridir və "Əxlaqi-Nasiri" əsəri əvvəldən axıra kimi həm də cəmiyyətdə tənqidi təfəkkürün inkişafına xidmət edən ən zəngin fəlsəfi-psixoloji xəzinədir.

**Məqalənin aktuallığı.** Psixologiya elminin tarixini inkişaf etdirmək, psixoloji nəzəriyyə, ideya və konsepsiyaların mənşəyini, inkişaf xüsusiyyətlərini sistemləşdirmək, elmi nəzəri aspektdən təhlil etmək, onlardan obyektiv nəticələr çıxarmaq müasir dövrdə Azərbaycan psixologiyası, onun perspektiv inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycan fəlsəfəsi və psixoloji fikir tarixi, ədəbi-bədii irsimiz təfəkkürün tənqidilik konsepsiyasının əsas təşəkkül qaynağından biridir. Bu baxımdan Azərbaycan fəlsəfəsi fikrində təfəkkürün tənqidiliyi xüsusiyyətlərinin araşdırılması aktualdır.

**Mövzunun elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, tədqiqatın nəticələri psixologiya elminin nəzəri müddəalarla zənginləşdirməsinə kömək edə bilər.

**Mövzunun praktik əhəmiyyəti və tətbiqi.** Bu məqalədən psixologiya ixtisası üzrə təhsil alan tələbə, magistr və doktorantlar üçün nəzərdə tutulan "Azərbaycanda psixoloji fikrin inkişaf tarixi" adlı kursda istifadə oluna bilər.

## Ədəbiyyat

1. Шульц Д. П., Шульц С. Э. История современной психологии / Под ред. А.Д. Наследова. СПб.: Евразия, 2002.
2. Məmmədov Z. C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: Şərq-Qərb, 2006.
3. Bayramov Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Bakı: Maarif, 1967.
4. Baxşəliyev Ə. T. Azərbaycan psixoloji fikir tarixinin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı: Nurlan, 2007.
5. Əliyev R. İ. Psixologiya tarixi. Bakı: Nurlan, 2006.

**С. Алиева**

## Критичность мышления в философских взглядах Азербайджана

## Резюме

Поскольку произведения древних и средневековых азербайджанских философов являются психологическими идеями, их следует рассматривать как первые источники современной азербайджанской психологической мысли.

В этой статье мы рассмотрели работы азербайджанских философов Абулхасан Бахманьяр, Абхафс Сухраварди, Сираджаддин Урмави, Насирэддин Туси и других, которые создали научно — философские взгляды в богатейшей средневековой истории философии. Научные философские взгляды Н.Туси, объяснения человеческой

психологии — являются наиболее ценными примерами истории психологической мысли Азербайджана. «Эхлаги-Насири» — это богатое философско-психологическое сокровище, которое служит развитию критического мышления в обществе, от начала и до конца.

**S. Aliyeva**

## Critical thinking in philosophical views of Azerbaijan

## Summary

Since the works of ancient and medieval Azerbaijani philosophers are considered to be psychological ideas, they should be regarded as the very first sources of modern psychological thought. In this article we reviewed the works of Azerbaijani philosophers Abulhasan Bahmaniar, Abkhavs Sukhravardi, Sirajaddin Urmavi, Nasiraddin Tusi who have created scientifically-philosophical views in history of medieval philosophy. N.Tusi's scientific philosophical views, explanation of human psychology- are considered to be the most vivid examples of history of Azerbaijan psychology. "Ehlagi-Nasiri"-is a very valuable philosophy-psychological treasure which improves critical thinking in society from the beginning till the end.

**Redaksiyaya daxil olub:** 01.01.2019